

# Zemfira MƏHƏRRƏMLİ-70

*Hörmətli Zemfira Məhərrəmli!*

*Sizi - tanınmış yazıçı-publisisti əlamətdar yubileyiniz münasibətilə təbrik edirik. Hələ ADU-nun (indiki BDU) Jurnalistika fakültəsində təhsil aldığınız illərdən, ilk qələm nümunələrinizlə ədəbi fəaliyyətə başladığınız dövrdən üzübəri mənalı bir ömrə imza atmısınız.*

*Ustad jurnalist Nəsir İmanquliyevin yaratdığı "Bakı" və "Baku" şəhər qəzetlərində 1978-ci ildən əmək fəaliyyətinə başlayaraq müxbir işləmiş, Elm, təhsil və mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışmısınız (1990-2003). Həmin dövrdə mədəniyyət, elm, təhsil və mənəvi problemlərə dair çoxsaylı publisistik yazıların müəllifi kimi, imzanız oxucuların axtardığı və gözlədiyi imzalardan olub.*

*Qarabağ mövzusu uzun illərdir ki, dönə-dönə müraciət etdiyiniz müqəddəs mövzudur. 1991-ci ildən dəfələrlə "qaynar" nöqtələrdə olub, Birinci Qarabağ müharibəsinin dəhşətlərini, torpaqlarımızın bölünməzliyi uğrunda çarpışan oğul və qızlarımızın hünərini əks etdirən cəbhə reportajları dərc etdirmisiniz.*

*1990-1992-ci illərdə Azərbaycan televiziyasında efirə çıxan populyar "Ana sözü" qadınlar üçün ictimai-siyasi proqramın ssenari müəllifi və aparıcısı olmusunuz.*

*Qarabağ savaşı mövzusunda yazdığınız silsilə kitablarınızla haqq işimizi dünyaya çatdırmısınız.*

*Yaradıcılıq uğurlarınıza görə Həsən bəy Zərdabi (1997), "Qızıl qələm" (1998) mükafatlarının sahibisiniz, 2018-ci ildə AYB-nin Beynəlxalq Rəsul Rza mükafatına layiq görülmüsünüz. 2003-cü ildə "Pedaqoji mətbuatda tərbiyə problemi" mövzusunda dissertasiya müdafiə edərək, pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almısınız. 2003-2015-ci illərdə Ombudsman Aparatının İnformasiya və İctimaiyyətlə Əlaqələr sektorunun müdiri vəzifəsində çalışmış, Mətbuat Xidmətinin rəhbəri olmusunuz. Bu illər ərzində bədii yaradıcılığınızı da davam etdirmisiniz.*

*2015-ci ildə "Ömür bitər, yol bitməz..." kitabınız, habelə povest, hekayə, mənsur şeirlər və esselərinizdən seçmələrin toplandığı "Oyuncaq" adlı əsəriniz çap edilmişdir. Nəsr əsərlərinizdə həyatın burulğanlarına, ağrılı mövzulara baş vuraraq, müxtəlif bədii situasiyalarda əks etdirdiyiniz hadisələrlə bağlı hiss və duyğularınızı bölüşmüsünüz.*

*Türkiye İlim ve Edebiyat Eseri Sahipleri Meslek Birliği (İLESAM) kimi nüfuzlu beynəlxalq yaradıcılıq qurumunun üzvüsünüz. "Sonbaharın İlğımları" adlı kitabınız (2017) həmin qurumun Azərbaycan təmsilçiliyi ilə birgə layihə çərçivəsində, Türkiyə türkcəsində işıq üzü görmüşdür.*

*"Qarabağ müharibəsi: zərif talelər" kitabınız (2018) oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Adıçəkilən kitabınızın Bakıda, Tbilisidə və Ankarada təqdimat mərasimləri keçirilmişdir.*

*Təbrizin "Yaşar qələm" nəşriyyatında povest və hekayələrinizdən ibarət "Analıq haqqı" kitabınız (2018) çap edilmişdir.*

*"Aranfilm"in istehsalı olan "Döyüşə qızlar gedir" sənədli filminin (2019) ideya və ssenari müəllifisiniz.*

*Sizin "Bədii düşüncədə Qarabağ" adlı əsəriniz taleyimizə yazılan 30 illik savaşın başlanğıcından Vətən müharibəmizədək olan dövrü əhatə edir. Bu kitabda sizin yazıçı tənqidinizin diqqətini çəkən, bu yöndə ədəbi söhbətlərinizin məğzini təşkil edən iztirab və kədərimiz, mücadiləmiz və möhtəşəm Zəfərimizdən söz açılıb, qələm adamlarının yaradıcılığında Qarabağ mövzusunun bədii inikası araşdırılıb. İngiliscə çapdan çıxmış "The scent of the roses" (Baku, 2022) adlı kitabınız müasir Azərbaycan nəsri seriyası ilə işıq üzü görmüşdür. "Zafer Yolcuları" (İstanbul, 2023) kitabınız 44 günlük Vətən müharibəsində ordumuzun rəşadətli yolunu əks etdirir. Sizin "Çox kiçikdir bu dünya..." (Bakı, 2024), "Qələm sirdaşım oldu" (2025) kitablarınız, habelə "Arabadakı adam" (2025) romanınız oxucular tərəfindən maraqla qarşılanmışdır.*

*Ölkə Prezidentinin 21 iyul 2010-cu il tarixli sərəncamı ilə "Tərəqqi" medalına, 6 mart 2021-ci il tarixli sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adına layiq görülmüsünüz.*

*Ümumtürk mədəniyyəti və ədəbiyyatı qarşısında xidmətlərinizə görə Beynəlxalq Mahmud Kaşğari mükafatı ilə təltif edilmisiniz (2021). Türk Dünyası Araştırmaları Uluslararası İlimler Akademisinin "Türk dünyası edebiyatına hizmet" beynəlxalq ödülünə və Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatına layiq görülmüsünüz (2022).*

*Dramaturgiya sahəsində ilk əsəriniz olan "Ümid işığı" adlı lirik-psixoloji pyesiniz 2025-ci ildə Şuşa Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuş, böyük maraqla qarşılanmışdır.*

*Azərbaycan Televiziyasının istehsalı olan və Mədəniyyət kanalında yayımlanan "Ötür durna qatarı..." sənədli filmi çoxşaxəli yaradıcılığınıza və 70 illik yubileyinizə həsr edilmişdir.*

*Hörmətli Zemfira xanım! Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, cansağlığı, uzun ömür, yaradıcılığınızda uğurlar arzulayırıq.*

*Azərbaycan Yazıçılar Birliyi*